**Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 24.1-ci maddəsinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 avqust 2002-ci il
774

Azərbaycan Respublikası Prezidentinin
2002-ci il 24 avqust tarixli, 774 nömrəli fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında**

**ƏSASNAMƏ**[1]

1. Bu Əsasnamə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 24.1-ci maddəsinə əsasən hazırlanmışdır və dövlət qulluqçularının mükafatlandırılmasının növlərini və qaydalarını müəyyən edir.

2. Mükafatın müəyyən edilməsi üçün götürülən dövr (hesablaşma dövrü) və mükafatlandırmanın şərtləri dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən müəyyən edilir.

3. Dövlət qulluqçuları işin nəticələrinə görə mükafatlandırılmanın aşağıdakı növləri üzrə həvəsləndirilir:

kollektiv mükafatlandırılma;

fərdi mükafatlandırılma.

4. Dövlət qulluqçularının kollektiv mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

dövlət orqanının fəaliyyətinin əsas istiqamətləri üzrə işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;

mühüm dövlət tapşırıqlarının dövlət orqanı tərəfindən vaxtında yerinə yetirilməsi;

qanunvericiliklə müəyyən edilmiş milli bayram günləri və digər əlamətdar hadisələrlə əlaqədar.

5. İşin nəticələrinə görə kollektiv mükafatlandırma zamanı mükafatın müəyyən edilməsi üçün götürülən dövrdə (hesablaşma dövrü) hamiləliyə və doğuşa görə məzuniyyətdə olma, ştatların ixtisarı ilə əlaqədar işdən azad olma, hərbi xidmətə çağırılma, ixtisasartırma kursunda olma və digər üzürlü səbəblərdən tam işləməmiş dövlət qulluqçuları üçün onların faktiki qulluq keçdiyi dövrə görə mükafat hesablanır.

Xəstəliklə əlaqədar işdə olmayan dövlət qulluqçusuna mükafat verilməsi məsələsi hər bir konkret halda onun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən müəyyən edilir.[2]

Hesablaşma dövründə işdən azad edilmiş dövlət qulluqçusuna həmin dövr üçün müəyyən edilən mükafat ödənilmir.

Dövlət qulluqçusunun növbəti məzuniyyətdə olduğu dövr mükafat hesablanarkən götürülən hesablaşma dövründə nəzərə alınır.

6. Dövlət qulluqçularının kollektiv mükafatlandırılması staj müddəti *(6 ay)* başa çatmamış olan qulluqçuya (stajçıya) şamil olunmur.[3]

7. Dövlət qulluqçularının fərdi mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsi, səmərələşdirici təkliflər verilməsi, təşəbbüskarlıq göstərilməsi, işdə yeni forma və metodların tətbiqi, gənc mütəxəssislərə lazımi köməklik göstərilməsi;

rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;

normativ hüquqi aktların layihələrinin hazırlanması və qəbul edilməsində fərqlənməsi.

Dövlət orqanının rəhbəri dövlət qulluqçusunu xüsusi əhəmiyyətli vacib tapşırıqların, mürəkkəb işlərin yerinə yetirilməsi ilə əlaqədar, həmçinin layiqli işinə görə bayramlar və yubileylər zamanı birbaşa olaraq fərdi qaydada (birdəfəlik) mükafatlandıra bilər.

8. Dövlət qulluqçusuna işin nəticələrinə görə verilən mükafatların məbləği onun fəaliyyətinin nəticələrindən asılı olaraq qulluq keçdiyi orqanın rəhbəri tərəfindən müəyyən edilir və onun yuxarı həddi məhdudlaşdırılmır.

9. Dövlət qulluqçusuna pul mükafatı əvəzinə qiymətli hədiyyələr də verilə bilər.

10. Dövlət qulluqçularının fərdi mükafatlandırılması onun qulluq keçdiyi struktur bölmə rəhbərinin və ya yuxarı dövlət orqanının təqdimatı, habelə *xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsi* əsasında onun işlədiyi dövlət orqanı rəhbərinin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilir.[4]

11. Dövlət qulluqçularının mükafatlandırılması onların qulluq keçdikləri orqanlara bu məqsəd üçün dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilir.[5]

12. Dövlət qulluqçularının mükafatlandırılması məqsədi ilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində bu

orqanlarda dövlət qulluqçuları üçün müəyyən olunmuş aylıq *vəzifə maaşının* 3 misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.[6]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 24 iyun 2009-cu il tarixli 107 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 419**)
2. 16 may 2017-ci il tarixli **1406** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 810**)
3. 10 mart 2021-ci il tarixli **1298** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 11 mart 2021-ci il, 54, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 222**)


## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 24 iyun 2009-cu il tarixli 107 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 419**) ilə "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 2-ci bənddə, 5-ci bəndin birinci və ikinci abzaslarında, 8-ci bənddə, 10-cu bənddə "**işlədiyi**" sözü "**qulluq keçdiyi**" sözləri ilə əvəz edilmişdir.

[2] 24 iyun 2009-cu il tarixli 107 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 419**) ilə "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 5-ci bəndin ikinci abzasında "**işçiyə**" sözü "**dövlət qulluqçusuna**" sözləri ilə əvəz edilmişdir.

[3] 16 may 2017-ci il tarixli **1406** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 810**) ilə "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 6-cı hissəsində "(**1 il**)" sözləri "(**6 ay**)" sözləri ilə əvəz edilmişdir.

[4] 16 may 2017-ci il tarixli **1406** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 810**) ilə "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 10-cu hissəsində "**attestasiya komissiyasının tövsiyəsi**" sözləri "**xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticəsi**" sözləri ilə əvəz edilmişdir.

[5] 24 iyun 2009-cu il tarixli 107 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 419**) ilə "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 11-ci bənddə "**işlədikləri**" sözü "**qulluq keçdikləri**" sözləri ilə əvəz edilmişdir.

[6] 10 mart 2021-ci il tarixli **1298** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 11 mart 2021-ci il, 54, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 222**) ilə "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamə"nin 12-ci hissəsində **"əmək haqqı fondunun (vəzifə maaşına əlavələr istisna olmaqla**)" sözləri "**vəzifə maaşının**" sözləri ilə əvəz edilmişdir.